# Azərbaycan hakimiyyəti təcili olaraq Rəsul Cəfərovun məhkumluğu ilə bağlı cinayət işini yenidən açmağa çağrılır

## 22 sentyabr 2017-ci ildə dərc olunub




**Rəsul Cəfərov (Credit: People in Need's "Doubling Down on Repression" exhibition.)**

2017-ci sentyabr ayının 21-də Avropa Şurası Nazirlər Komitəsi[1] Azərbaycan hakimiyyətini 2015-ci ilin aprel ayında Rəsul Cəfərovun məhkum edilməsi ilə nəticəcələnmiş cinayət işi üzrə icraatı yenidən açmağa çağırmışdır. Bu olduqca əhəmiyyətli bir presedentdir və bu presedentdə Komitə "siyasi təqib" nəticəsində meydana gələn məhkumluqla bağlı işin dərhal yenidən açılmasını tələb edib.[2]

Komitənin qərarı Middlesex Universitetində yerləşən EHRAC təşkilatı və Rəsulun vəkili Xalid Bağırov tərəfindən Komitəyə onun vəziyyətini izah edən və işin yenidın açılmasına çağıran məktub təqdim edildikdən bir neçə həftə sonra qəbul edilmişdir. Məktub Birləşmiş Krallığın aparıcı vəkillərindən olan Yulian Nouelsin rəyi ilə dəstəklənmişdir. EHRAC-ın hüquqşünasları da sentyabrın əvvəllərində Avropa İcra Şəbəkəsi (European Implementation Network) tərəfindən tədbir keçirilən zaman Komitəyə işin icrası ilə bağlı son məlumatları vermişlər.

İnsan Hüquqları Klubunun təsisçisi və sədri Rəsul Cəfərov fəallığına görə 2014-cü ildə həbs olunub. 2016-cı ildə Avropa İnsan Hüquqları Məhkəməsi qərar çıxarıb ki, onun həbsi və azadlıqdan məhrum edilməsi siyası xarakterli olub və onu susdurmaq və cəzalandırmaq məqsədi daşıyıb (Avropa İnsan Hüquqlari Konvensiyasının 5 və 18-ci `maddələrinin tələblərini pozmaqla). Buna baxmayaraq, Azərbaycan məhkəmələri həmin vaxtdan bəri onun məhkumluğuna və azadlıqdan məhrum edilməsinə səbəb olmuş ölkədaxili icraatı yenidən açmaqdan imtina etmişlər. Məhkumluğu səbəbi ilə c-b Cəfərov Azərbaycan Vəkillər Kollegiyasının üzvü ola və ya 2021-ci ilə qədər seçkilərdə iştirak edə bilməz.

EHRAC Azərbaycanda 2014-cü ildən başlamış və bu gün də davam edən tənqidi səslərin təzyiqə məruz qalması ilə bağlı bir sıra digər işlər üzərində də azərbaycanlı vəkillərlə birlikdə işləyir. Jurnalistlər, media qurumları, insan hüquq müdafiəçiləri və vəkillər, vətəndaş cəmiyyəti təşkilatlarının hamısı ağır mıhdudiyyətlərə məruz qalmış, əksəriyyəti öz fəaliyyətini dayandırmağa və ya xaricə köçməyə məcbur olmuşdur.

---

[1] Avropa Şurasının Avropa İnsan Hüquqları Məhkəməsinin Qərarlarının İcrasına nəzarət etmə səlahiyyittinə malik olan qurumu.

[2] İş əsasən Rəsul Jəfərovun məhkəməyəqədər həbsinin qanuni olub olmaması ilə bağlı idi. Avropa Məhkəməsi Avropa İnsan Hüquqları Konvensiyasının 5-ci və 18-ci Maddələrinin pozuntusunu aşkar etmişdir. 6-cı Maddə (ədalətli məhkəmə araşdırması) ilə bağlı məsələ bu işdə qaldırılmamışdı.